BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ
MƏRKƏZİ

TƏHLİL

# Gürcüstanda “Qiymətlər üzrə Parlament Komissiyası”nın yekun hesabatı nələri üzə çıxarıb?


Nəsibə Mirzəyeva

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


MAY 2026

# Gürcüstanda “Qiymətlər üzrə Parlament Komissiyası”nın yekun hesabatı nələri üzə çıxarıb?

Gürcüstan hökuməti ölkədə qiymət artımının səbəblərinin araşdırılması istiqamətində müvafiq tədbirlər görüb. Cari ilin fevral ayında təşkil olunan “Qiymətlər üzrə Parlament Komissiyası” bu yöndə müvafiq işlər apararaq təchizat zəncirində qiymət artımının baza iştirakçıları arasında sövdələşmənin nəticəsi olub-olmadığını müəyyənləşdirməyə çalışıb. Komissiyanın işinə cəlb edilən Dövlət Təhlükəsizlik Xidməti də iri pərakəndə satış şəbəkələrindən və distributorlardan sənədləri, müqavilələri, mühasibat materiallarını, o cümlədən satış qiymətləri haqqında məlumatları tələb edib. Məqsəd rəsmi şəkildə yoxlanış apararaq şişirdilmiş qiymətlərin səbəbini müəyyənləşdirmək olub.

## “Qiymətlər üzrə Parlament Komissiyası”nın yekun hesabatı

1 may tarixində “Qiymətlər üzrə Parlament Komissiyası” fəaliyyətinin yekunlaşdıraraq tez istehlak edilən tələbat malları (FMCG) sektorunda qiymətlərin formalaşması mexanizmi üzrə hesabat dərc edib.[1] Sənəddə qeyd olunub ki, sistemli dəyişikliklər həyata keçirilmədən, yəni bazarın şəffaflığı təmin olunmadan, logistika sahəsi yaxşılaşmadan, həmçinin dövriyyə kapitalı üzərindəki təzyiqi azaldan tədbirlər görülmədən qısa müddət ərzində qiymətlərin azaldılması imkanı məhduddur. Sənədə əsasən, tez istehlak edilən tələbat malları sektoru Gürcüstan iqtisadiyyatının ən iri və sosial baxımdan ən həssas sahələrindən biridir. Bu sektorun həcmi 2019-2024-cü illərdə təxminən 2,5 dəfə artaraq 21,2 milyard lariyə çatıb ki, bu da 2025-ci ildə ÜDM-in təxminən 20%-nə bərabərdir.

Araşdırma bir neçə mühüm nəticəni ortaya qoyub:

- pərakəndə bazar rəqabətlidir və aşağı konsentrasiya səviyyəsi ilə xarakterizə olunur;
- pərakəndə şəbəkələrin gəlirliliyi beynəlxalq standartlara uyğundur və “artıq marjalar”a işarə etmir;
- qiymətin formalaşmasında yalnız maya dəyəri deyil, həm də kommersiya şərtləri və dövriyyə kapitalı həlledici rol oynayır;
- bazarda geniş şəkildə “yüksək-aşağı” (Hi-Lo) qiymət modeli tətbiq olunur və məhsulların böyük hissəsi endirimlə satılır. Bu model çərçivəsində satışların

[1] **Hesabatın tam mətni**: სასურსათო პროდუქციის, მედიკამენტებისა და საწვავის ფასწარმოქმნის სტრუქტურის შემსწავლელი საქართველოს პარლამენტის დროებითი კომისია დასკვნა. საქართველოს პარლამენტი 2026. https://web-api.parliament.ge/storage/files/shares/komisia/sasursato/daskvna.pdf

təxminən 70-80%-i kampaniya (endirim) dövründə həyata keçirilir, yəni istehlakçının faktiki ödədiyi qiymət çox vaxt vitrində göstərilən qiymətdən xeyli aşağı olur.

Komissiyanın dəyərləndirməsinə görə, qiymətlərin formalaşmasına mane olan əsas struktur problemlər bunlardır:

- dəyər zəncirində kommersiya güclərinin qeyri-bərabərliyi;
- ödənişlərin uzadılmış müddətləri (60-90 gün);
- yüksək dövriyyə kapitalı tələbi;
- logistika və tədarük zəncirinin qeyri-effektivliyi;
- kommersiya şərtlərinin aşağı şəffaflığı.

Bu amillərin birgə təsiri elə bir mühit yaradır ki, yalnız rəqabətin artırılması hesabına qiymətləri azaltmaq çətinləşir və sistemli siyasət tələb olunur.

Hesabat vurğulayır ki, qiymət dörd əsas həlqənin təsiri ilə formalaşır:

- istehsalçı ilkin maya dəyərini müəyyən edir (xammal, əmək, istehsal);
- idxalçı/distributor logistika, maliyyə və kommersiya xərclərini əlavə edir;
- pərakəndə şəbəkə son qiyməti müəyyən edir və kampaniyaları idarə edir;
- istehlakçı isə tələbat vasitəsilə real tranzaksiya qiymətini formalaşdırır.

Mühüm məqam ondan ibarətdir ki, endirimlər təkcə pərakəndə şəbəkələr tərəfindən deyil, həm də təchizatçıların təqdim etdiyi "back margin" mexanizmi ilə maliyyələşdirilir. Bu isə qiymətlərin azalmasının zəncir daxilində marjaların yenidən bölüşdürülməsi hesabına baş verdiyini göstərir. Sahəvi araşdırmaya əsasən, 2026-cı ilin fevral-aprel aylarında əsas ərzaq məhsulları (yağ, un, şəkər və s.) üzrə inflyasiya təzyiqi qeydə alınmayıb. Eyni zamanda:

- real orta qiymət vitrində göstərilən qiymətdən aşağıdır və əsas etibarilə 25-40% həcmdə endirimlər müşahidə olunmaqdadır;
- bəzi hallarda Gürcüstandakı qiymətlər Şərqi Avropa ölkələri ilə müqayisədə daha aşağıdır.

Komissiya açıq şəkildə bildirir ki, qiymətlərin inzibati tənzimlənməsi effektiv deyil və siyasət struktur islahatlara yönəlməlidir. Eyni zamanda tədarük zəncirinin optimallaşdırılmasına dəstək vacibdir ki, bu da logistika və kommersiya xərclərini azaldaraq son qiymətə müsbət təsir göstərəcək.

Orta müddətli tövsiyələrə:

- ixtisaslaşmış institusional mexanizmin yaradılması;
- kommersiya münasibətlərinin standartlaşdırılması;
- sektor üzrə monitorinq sisteminin tətbiqi;
- bazar iştirakçıları üçün məlumatların rəqəmsallaşdırılması.

Uzunmüddətli tövsiyələrə:

- logistika və infrastrukturun səmərəliliyinin artırılması;
- rəqabəti gücləndirmək üçün şəxsi marka (private label) məhsullarının inkişafı;
- yerli istehsalın dəstəklənməsi kimi məsələlər daxil edilib.

Qısamüddətli addımlar kimi:

- konkret məhsullar üzrə hədəflənmiş və müvəqqəti müdaxilələr;
- qiymətləri azaltmaqla yanaşı bazarın fəaliyyətini pozmayan mexanizmlər məsləhət görülüb.

Hesabatda həmçinin vurğulanıb ki, həddindən artıq tənzimləmə mənfi nəticələrə gətirib çıxara bilər:

- süni qiymət nəzarəti rəqabəti azaldır;
- məhsul təchizatı pisləşə bilər;
- uzunmüddətli dövrdə orta qiymətlər arta bilər.

Komissiyanın əsas nəticəsi ondan ibarətdir ki, Gürcüstanda ərzaq məhsullarının qiymətləri "sistemli amillərin nəticəsidir" və onların azalması yalnız kompleks iqtisadi siyasətlə mümkündür. Sektorun uzunmüddətli transformasiyası bazarın səmərəliliyini artıran, rəqabəti gücləndirən və qiymətlərin formalaşma prosesini təkmilləşdirən struktur dəyişikliklərə əsaslanmalıdır. Bu baxımdan logistika və infrastruktur sistemlərinin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Bu, tədarük zəncirində xərcləri azaldaraq məhsulların vaxtında və effektiv çatdırılmasını yaxşılaşdıra bilər.

Hüquq-mühafizə orqanlarının koordinasiyası üzrə dövlət naziri, Dövlət Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri **Mamuka Mdinaradze** qiymətlərin təyin edilməsi üzrə istintaqla bağlı Dövlət Təhlükəsizlik Xidmətinin rəyinin hələ hazır olmadığını bildirib.

**Mdinaradze** araşdırmanın uzun müddət çəkdiyini, buna görə də nəticənin 1-2 ay ərzində hazırlana bilməyəcəyini söyləyib[2].

**İqtisadi məsələnin siyasi müzakirəyə çevrilməsi**

Komissiyanın rəyində konkret qərarlar yer almasa da, hesabatın dərcindən qısa müddət sonra sektor nümayəndələri qiymətlərin qısamüddətli azaldılmasına yönəldilmiş təşəbbüslərlə çıxış etməyə başlayıblar. Pərakəndə Ticarət Assosiasiyası bildirib ki, şirkətlər “Ailə səbəti” proqramı çərçivəsində xüsusi qiymət siyasətinin tətbiq ediləcəyi ilkin zəruri malların siyahısını formalaşdırmağa başlayıblar.[3] Belə yanaşmanın effektivliyi tədarük zəncirinin bütün iştirakçılarından asılıdır. Az sonra isə Daily Group[4], Goodwill və Nikora kimi ayrı-ayrı bazar oyunçuları da oxşar təşəbbüslərlə çıxış etməyə başlayıblar.[5]

Gürcüstanda qiymətlərlə bağlı vəziyyət ilk növbədə ölkənin yüksək idxal asılılığı ilə izah olunur. Daxili bazara beynəlxalq qiymətlər də birbaşa təsir göstərir. Nəqliyyat xərcləri, regional qeyri-sabitlik və logistika zəncirlərindəki pozuntular isə, öz növbəsində birbaşa məhsul mağaza rəfinə çatmamışdan əvvəl onun dəyərinin artmasına gətirib çıxarır. Hesab olunur ki, belə şəraitdə dövlətin tənzimləmə və ya bizneslə danışıqlar yolu ilə qiymətləri aşağı salmaq cəhdləri yalnız müvəqqəti effekt verə bilər. Zəif bazar rəqabəti də problem kimi qeyd edilir. Faktiki olaraq bir neçə bazar iştirakçısının qiymətlərin formalaşmasına nəzarəti bazar çevikliyini azaldır.

Yüksək qiymətlərlə mübarizənin zəruriliyindən ilk dəfə Baş nazir **İrakli Kobaxidze** 2025-ci ilin dekabrında bəhs edib.[6] Bundan sonra ərzaq inflyasiyası mövzusu sürətlə iqtisadi müzakirə çərçivəsindən çıxaraq siyasi məsələyə çevrilib.

Qiymət artımı ilə mübarizə aparmaq üçün hökumət xüsusi koordinasiya komissiyası yaradıb və ona şəxsən **Kobaxidze** rəhbərlik edib. Komissiyanın tərkibinə iqtisadiyyat,

---

[2] ექსპერტიზას დიდი დრო სჭირდება. დასკვნა ჯერ არ არის|მამუკა მდინარაძე სუს-ის მიერ ფასების მოკვლევაზე 08.05.2026 https://bm.ge/news/eqspertizas-didi-dro-schirdeba-daskvna-jer-ar-arismamuka-mdinaradze-sus-is-mier-fasebis-mokvlevaze

[3] "საოჯახო კალათა" ფასების შესამცირებლად - ვის ხარჯზე უნდა დაიკლოს ფასებმა? 04.05.2026 https://www.youtube.com/watch?v=JHfJ2zuezfE

[4] „დეილი ჯგუფი“ - შეიქმნება პირველადი მოხმარების პროდუქციის კალათა, რომელიც გააერთიანებს ყველაზე მოთხოვნად პროდუქტებს, დაწესდება მინიმალური სავაჭრო მარჟა 02.05.2026 https://1tv.ge/news/deili-jgufi-sheiqmneba-pirveladi-mokhmarebis-produqciis-kalata-romelic-gaaertianebs-yvelaze-motkhovnad-produqtebs-dawesdeba-minimaluri-savachro-mardja/

[5] "ვაახლებთ ფასებს და ვქმნით მათ კიდევ უფრო ხელმისაწვდომს ყოველდღიურ პროდუქტებზე" - "ნიკორა სუპერმარკეტი" 02.05.2026 https://www.ambebi.ge/article/342805-vaaxlebt-pasebs-da-vkmnit-mat-kidev-upro-xelmisac/

[6] ირაკლი კობახიძე სურსათის მაღალ ფასებზე საუბრობს და გამოძიებას ითხოვს. Dekabr 2025. https://www.youtube.com/watch?v=mly433BPhWc

maliyyə, kənd təsərrüfatı, səhiyyə nazirləri, digər vəzifəli şəxslər və deputatlar daxil edilib.[7] Komissiya ümumilikdə 14 üzvdən ibarət olub:

- “Gürcü Arzusu” partiyasından - 7 nəfər;
- “Gürcüstan naminə” partiyasından – 3 nəfər;
- “Xalqın gücü” hərəkatından – 3 nəfər;
- “Avropalı Sosialistlər” partiyasından – 1 nəfər.

Komissiyanın iclaslarına iri ticarət şəbəkələrinin, distributor şirkətlərin, ərzaq istehsalçılarının, dərman sektorunun və yanacaq biznesinin nümayəndələri dəvət olunub[8]. Formal olaraq komissiya aktiv iş mərhələsini aprelin sonuna qədər başa çatdırmalı idi. Lakin aprel ayının sonlarında baş nazir bildirib ki, nəticələr yalnız may ayında təqdim olunacaq və hesabatda qiymətlərlə bağlı mövcud vəziyyətin “*əlverişlilik dərəcəsi*” və onu “*daha yaxşıya doğru*” necə dəyişməyin mümkün olduğu göstəriləcək.[9]

İqtisadi məsələlər üzrə ekspert **Nika Şengeliya** qeyd edib ki, Statistika Xidməti beynəlxalq metodologiyadan istifadə edir və inflyasiyanı istehlak səbəti əsasında hesablayır. Lakin aztəminatlı əhali qruplarında ərzaq xərcləri orta səbətdə göstəriləndən daha böyük pay tutur. Bundan əlavə, bazar qiymətlərində dəyişikliklə statistik məlumatların dərc edilməsi arasında vaxt fərqi mövcuddur, həmçinin Tbilisi ilə regionlar arasında qiymətlərdə nəzərəçarpacaq fərq var. Buna görə də, ekspertin sözlərinə görə, “hər şey bahalaşır” kimi ictimai qavrayış çox vaxt rəsmi inflyasiya göstəricilərindən daha güclü olur: “*İnflyasiyanın zəifləməsi qiymətlərin enməsi demək deyil. Bu, sadəcə qiymətlərin əvvəlkindən daha yavaş artması deməkdir*”.

**Şengeliya** hesab edir ki, problem təkcə ərzaq inflyasiyası ilə məhdudlaşmır və Gürcüstan iqtisadiyyatının strukturuna qədər uzanır. İqtisadi fəallığın böyük hissəsi istehsal və ya ixrac hesabına deyil, əsasən kreditləşmə ilə dəstəklənən istehlak hesabına formalaşır. Ekspertin sözlərinə görə, insanlar daha çox xərcləyirlər, lakin bu,

---

[7] სასურსათო პროდუქციის, მედიკამენტებისა და საწვავის ფასების შემსწავლელი საპარლამენტო კომისია შეიქმნა 04.02.2026 https://civil.ge/ka/archives/719975

[8] პარლამენტმა სასურსათო პროდუქციის, მედიკამენტებისა და საწვავის ფასწარმოქმნის სტრუქტურის შემსწავლელი დროებითი კომისიის შექმნას მხარი დაუჭირა 03.02.2026 https://parliament.ge/media/news/parlamentma-sasursato-produktsiis-medikamentebisa-da-satsvavis-fastsarmokmnis-strukturis-shemstsavleli-droebiti-komisiis-shekmnas-mkhari-dauchira

[9] ირაკლი კობახიძე - ჩვენი ამოცანაა, ფასები შემცირდეს, კომისია ამ კვირაში ამთავრებს მუშაობას, სამუშაო პროცესი მომავალ კვირაში გვექნება და შემდეგ საბოლოო გეგმით წარვდგებით საზოგადოების წინაშე 28.04.2026 https://1tv.ge/news/irakli-kobakhidze-chveni-amocanaa-fasebi-shemcirdes-komisia-am-kvirashi-amtavrebs-mushaobas-samushao-procesi-momaval-kvirashi-gveqneba-da-shemdeg-saboloo-gegmit-warvdgebit-sazogadoebis-winashe/

onların real gəlirlərinin ciddi şəkildə artması ilə deyil, kreditlərə çıxışın genişlənməsi ilə bağlıdır. Bu isə iqtisadi artımın qismən süni xarakter daşımasına və sistemin bank sektorundakı dəyişikliklərə qarşı həssas olmasına səbəb olur. **Şengeliya** xatırladıb ki, Gürcüstanda bank sektoru həm ən güclü, həm də ən çox konsentrasiya olunmuş sahələrdən biridir. Bir neçə iri bank faktiki olaraq ölkənin maliyyə dinamikasını müəyyən edir. **Şengeliya** əsas problem kimi iqtisadiyyatın kifayət qədər şaxələndirilməməsini və daxili istehsala zəif söykənməsini göstərir.[10]

Çörək və qənnadı məhsulları istehsal edən "MBC Georgia" şirkətinin direktoru **Aleksandr Ratişvili** bildirib ki, ölkədə məhsul qiymətlərinin sabitliyinin təmin olunması üçün ən vacib amil yerli istehsalın inkişafıdır. Parlamentin Qiymət Komissiyası tərəfindən hazırlanmış hesabatı şərh edərkən o bildirib ki, sənəddə yer alan tövsiyələrin bir hissəsi qeyri-müəyyəndir. Onun sözlərinə görə, komissiya əsas diqqəti yerli istehsalın dəstəklənməsi mexanizmlərinə yönəltməli idi, lakin bu məsələ yalnız uzunmüddətli tövsiyələr bölməsində əksini tapıb. O hesab edir ki, yerli istehsala dəstək məsələsi yetərincə prioritetləşdirilməyib.[11]

İqtisadçı **İa Eradzeyə** görə, istehsal kapital olmadan inkişaf edə bilməz, ölkədə isə kapital olduqca bahadır və xüsusilə kiçik və orta biznes üçün əlçatan deyil. Bank sektoru rekord mənfəətlər əldə etdiyi halda, kreditləşmə istehsalın inkişafına yönəlmir. Buna əlavə olaraq ölkədə kapitalın alternativ mənbələri də yoxdur, inkişaf bankı belə mövcud deyil. Banklar iqtisadi inkişafın xidmətinə qoyulmadıqca yerli istehsal inkişaf edə bilməz. Bu isə öz növbəsində milli iqtisadiyyatın və cəmiyyətin ehtiyaclarına yönəlmiş bir mərkəzi bank olmadan mümkün deyil.[12]

## Nəticə

Aparılan araşdırma göstərir ki, Gürcüstanda qiymət artımı çoxsaylı amillərin qarşılıqlı təsiri nəticəsində baş verib. Parlament Komissiyasının müvafiq fəaliyyəti və təqdim etdiyi yekun hesabatı qiymətlərin formalaşmasının təkcə istehsal xərcləri ilə bağlı olmadığını, eyni zamanda kommersiya münasibətləri, maliyyə şərtləri, logistika xərcləri və digər tərəfdən bazar iştirakçıları arasındakı münasibətlərdə olan boşluqla əlaqədar olduğunu göstərib.

Aydın olur ki, qısa müddətli inzibati və ya selektiv qiymət tənzimləmələri bazarda fundamental dəyişiklik yaratmaq üçün kifayət etmir və yalnız məhdud effektlərə

[10] Nika Shengelia 06.05.2026 https://sr-rs.facebook.com/nika.shengelia.988

[11] ადგილობრივი წარმოების მხარდაჭერის გარეშე ფასების კომისიების დასკვნები უშედეგო იქნება - რატიშვილი 10.05.2026 https://bm.ge/news/adgilobrivi-tsarmoebis-mkhardacheris-gareshe-fasebis-komisiebis-daskvnebi-ushedego-iqneba-ratishvili

[12] მოძრაობა სოციალური დემოკრატიისთვის 11.05.2026 https://www.facebook.com/photo/?fbid=122142327788414300&set=a.122095377662414300

səbəb olur. Bu problemin aradan qaldırılması istiqamətində rəqabət mühitinin gücləndirilməsi, təchizat zəncirinin optimallaşdırılması, institusional şəffaflığın artırılması başlıca şərt kimi çıxış edir.

Maliyyə sektorunun rolu, xüsusilə kapitala çıxış imkanları və kreditləşmə şərtləri iqtisadi proseslərə əhəmiyyətli təsir göstərir.

Bu mövzu ətrafında gedən siyasi müzakirələr göstərir ki, qiymətlərin tənzimlənməsi məsələsi təkcə iqtisadi deyil, həm də idarəetmə və koordinasiya mexanizmləri ilə bağlı kompleks yanaşma tələb edir.

**Müəllif: Nəsibə Mirzəyeva, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi.**